# ИЛҺАМ ГӘҺРӘМАНЫН ГӨВСИ-ГҮЗЕҺИ



Bəlkə də, başımın qənimi olan ətalət mənə yol verməyəcəkdi. Əgər İlham Qəhrəmanın "Yaddaş yolu" poemasını oxumasaydım. Halbu ki, bu əsərə qədər o, Azərbaycan sözünün ədəbi tarixində yaradıcılığı ilə yerini tutmuş bir sənətkar olduğunu bilirdim. Görünür, bəzi mətləbləri aşkarlamaq üçün bilmək də azdır.

* * *

İlham Qəhrəman... adda da qədərincə emosiya yükü var. Ədəbi təxəllüsdə də haracan desən düşüncə imkanı var... indi gəl sözünü bütün sərhədlər içindən keçir və ilhamın sənə bəxş elədiyi güc içində qəhrəmanlıq göstər... İlham Qəhrəman. Təkcə fəlsəfi bir termin deyil. Yəni ruhun daşqını içində çağlar bir candan söhbət getmir ki, o can qəhrəmanlıq göstərsin. Burada söhbət sadə bir söz adamından, sadə bir söz qəhrəmanından gedir. Ən başlıcası, öz adına uyğun, öz ədəbi təxəllüsünə uyğun yaradıcılıq taleyini sözü-sənəti ilə istiqamətləndirə bilən sənətkardan danışmaq istəyiriksə, gərək, indi onun məcazlardan çox yuxarı dayana bilən adını da deyək - İlham Qəhrəman.

Necə də rəvan səslənir. İstəyirsən bu adı lap əvvəldə çək, ya da lap axırda çək. Mahiyyət birdir - qəhrəmanlığın ilhamı, yaxud da ilhamın qəhrəmanlığı.

Kimdir İlham Qəhrəman? Ağ saç, harmonik görünüş, bığlarına qədər keçdiyi həyat yolunun ağlığını özünün görünüşündə qoruyan ağayana... sözündə kişiliyin mahiyyətini ifadə edəcək bir görkəmi saxlamaq asanmı?..

Kimdir İlham Qəhrəman? Kimsə ilə davası olmayan söz xiridarı, öz yolunda axıracan inamın ovsar sahibi.

İlham Qəhrəman dədəsi yanmış kişidi. Çünki o qədər "qanmayam, dədən yansın" deyənlərlə üz-üzə gəlib ki, onun səsinin yanğısı külli-cahanın yanğısından fərqlidir və bir az da sözü boyalasaq, alayıdı. İndi tut bir kimsənin yaxasından soruş ki, "sənin bu dünyada yaşamaq qəsdin nədir?" - bəlkə, heç cavab verə bilməz, lap uzaq başı deyər ki, Allahın verdiyi ömrü yaşayıram. Amma İlham Qəhrəman üçün bu tale bir söz, sənət ömrüdür ona verilib. Əgər belə olmasaydı, "Sevgi durna çırağıdır" kitabı yazılmazdı. Mifoloji düşüncədə belə bir anlam var ki, durnalar uzaq məsafələri süzüb keçərkən hansısa bir zirvədə işıq görürlər. Guya həmin zirvədə durnaların ömrünü qoruyacaq, taleyini xilas edəcək bir Tanrı çırağı yanır.

Bu gün Durna çırağı haqqında dayaz izahlar da var. Ancaq İlham Qəhrəman kimi şairlərin "Sevgi durna çırağıdır" adlı şeirlər kitabı həmin mifin mahiyyətcə həyati çaları haqqında düşüncə imkanı verir. "Zəng" şeirində oxuyuruq:

Лачын -
həсрəтин бир учу
Оғулдəрə,
Бир учу Ҝүлəбирд.
Лачын -
Танры мүəллим олдуғу
синиф отағы,
Һамымыз
дəрсə кечикəн шакирд.

Bu, İlham Qəhrəmanın 60 yaşında, lap elə 160 yaşında, lap elə 360 yaşında uşaq ola biləcəyi bir məqamın təsviridir. Çünki bu, elə bir məqamdır ki, onun ruhunun, varlığının cismani yaşı ilə hesablaşmır. Ona görə də, İlham Qəhrəman bir sənətkar olaraq kimliyini - sözünü, sənətini öz rəngində göstərməyi ilə görünür.

İlham Qəhrəmanın sözündə bir dəyirman halallığı var:

Гəлəмлə дəјирман һарам көтүрмəз,
Бири вəhјдəн, бири дəндəн ишлəјир.
Бир шаир гəлəми шəри вəсф едə -
Шејтандан ишлəјир, чиндəн ишлəјир.

Тəлəјə тез дүшəр, јада кеч дүшəр,
Севинчи, пешəри, гəми дəч дүшəр.
Бəдəн јоруланда руhа күч дүшəр,
Руhу динчəлəндə бəдəн ишлəјир.

Илдырымөтүрəн, гадасованды,
Бир аз садəлөвhдү, бир аз авамды.
Илаhи, сүфрəси, бахма, јаванды
Шејтан фəhлəсиди бəндəн ишлəјир.

Bəlkə də, bu şeirdə, daha doğrusu, şairin ümumdünya ilə bağlı sözlə həsb-halında bir texniki kəm-kəsir də axtarmaq olar. Amma əsas yük, fikir karvanının üstündən keçir ki, bu karvan da axıracan getmək iqtidarındadır. İlham Qəhrəmanın bir kitabı da "Ağlama, qələm eşidər" adlanır. El içində söz var, deyərlər ki, "ağlama, el eşidər". İlham həmin sözü improvizə eləyir. Və özü də çox ustalıqla improvizə eləyir. Və biz İlham Qəhrəmanın səsində "el eşidər"in mahiyyətini "qələm eşidər" kimi qavramalı oluruq.

Ədəbiyyatşünas Nərgiz Cabbarlı İlham Qəhrəmanın "Ağlama, qələm eşidər" kitabına Ön sözündə yazır: "Өзүнəмəхсус үслубу, дил-ифадə компонентлəри олан фəргли, дəјишик, тəсвир-дүшүнчə модели јарадан мүəллифлəримиз вар. Вə бу чүр диггəт чəкəн, сечилəн имзалардан бири дə Илhам Гəhрəмандыр. Иллəрдир əдəби мəтбуатда, журналларда, гəзетлəрдə həр көрүнүшү фəргли, өзүнү јадда сахлајан тапынтыларла шаир руhунун сəмимијјəти вə садəлијилə јаратдығы поетик образларын өзүнəмəхсуслуғујла јадда галыб. Һəм сəрhəдлəри дахилиндə "чалышдығы" формаја, онун ганунаујғунлугларына дəриндəн бəлəдлији дујулуб. Бу мəтнлəрдə, həм дə (вə даhа чох) халг руhуна, тəфəккүрүнə, дүшүнчə вə өзүнүифадə моделинə, васитəлəринə доғмалыг... ејни заманда да бу ики хүсусијјəти горумагла өзү ола билмəк, өзү кими данышмаг, јазмаг бачарығы... бир шаир үчүнсə бу чəhəтлəр чох вачибдир.

Мəнə дə гыјдылар, күлүм,
Булбулə бычаг чəкəнлəр .
Дəhнəдəн сују дөндəриб,
Чəмəндəн чичəк чəкəнлəр.

Јаза чыхан сал буз кими,
Əријəн чан дəрдə јемди.
Ичим хараба дөнүб,
Ичимин бајгушу кəмди.

Ҝөрүндүјү кими, дашлашмыш бир форма - гəлиб дахилиндə өзүнүифадəдəн сөhбəт кедир. Лакин мүəллифи шаир едəн фəргли компонентлəр бу форма-гəлиби јаддагалан бир мəтнə чевирə билир". Ədəbiyyatşünas düşüncəsi şairin mənəvi mühitinə o qədər nüfuz edir ki, onun sözünü yarıdan kəsməyə qıymırsan. Necə ki, qıymağın mənəvi ağırlığını müəllif, yəni şair və eləcə

Kredo 2019.- 1 avqust.- S.1;16.

*(Əvvəli 1-ci səhifədə)*

Beləliklə, İlham Qəhrəman kimdir? - sualına cavab vermək missiyası hər hansı bir müasirin elektron lövhədə test sualı kimi görünsə, gərək, cavab verməyə tərəddüd eləməsin. O, Sarı Aşığın "Gul dəftəri" kitabını çapa hazırlayan, həm də mükəmməl və sonuncu variant kimi çapa hazırlayan müəllifdir. Təbiidir ki, Sarı Aşıqla bağlı söz-söhbət tükənən deyil. Amma məsələ burasındadır ki, İlham Qəhrəmanın "Gul dəftəri" Sarı Aşıq sənətinin az-çox görünən tərəflərini tam, real güzgüdə göstərmək iddiasındadır. O, bu kitabı Salman Mümtazın xatirəsinə həsr edib. Bu yerdə bir-iki kəlmə də yerinə düşər: İlham Qəhrəman kitabına yazdığı Ön sözün lap əvvəlində deyir:

İlham .

Qəhrəmanın Sarı Aşıq adına təqdim elədiyi abidənin sadəcə kənardan görünüşü belə, cazibə yaradır. Biz sözə, sənətə vurğunluğun, ovsunluğun mahiyyətini görürük. İlham Qəhrəman həqiqətən Sarı Aşığı əvvəlcə öz varlığına köçürür. Sonra onun özünün varlığından dilə gələn Sarı Aşığı dinləyir. Yəni Sarı Aşıq "elə yox, belə deyər" qənaətinə gəlir. İlham Qəhrəman Sarı Aşıq haqqında

İlham Qəhrəmanı

tədqiqatçı kimi tanıyaq, yoxsa şair kimi. Bundan əlavə o, folklor toplayıcısı kimi də haqq qazanıb. Amma düşünmək olar ki, İlham Qəhrəmanın poetik aləmi xüsusi vicdani meyar üstündə köklənib. Bu da onun bir şair olaraq özündən qabaqkı zamanda yaşamış şair babasına hörmət və ehtiram missiyasını sevgi ilə daşımasından irəli gəlir.

Müəllif yazır ki, –

.

İlham Qəhrəman çox ciddi tədqiqatlara işarə vurur. Bununla göstərir ki, o, təkcə Sarı Aşıq pərəstişkarı deyil, Sarı Aşığın bayatılarını fədakarlıqla bərpa etmək sahəsində ömür qoyan bir ustad deyil, həm də tədqiqatçıdır. Elə bir tədqiqatçıdır ki, özünü Sarı Aşıq zamanına apara bilir. Və həmin zamanın havasını öz içinə çəkir. Və özü ilə təzədən dilə gətirir. Və biz inanırıq ki, Sarı Aşıq öz bayatılarını məhz İlham Qəhrəmanın təqdim etdiyi kimi dilə gətirib.

İlham Qəhrəman... şair, tədqiqatçı, folklorçu... bu obrazların hər hansı birini götürüb ayrı-ayrılıqda tədqiq eləmək olar və son nəticədə mükəmməl, milli-ruhuna sadiq, sözə vurğun... qələm sahibini tanımaq imkanımız olar. Və bu tanışlıq da bizə imkan verər ki, mənəvi mühitimiz daha zəngin olsun, daha rəngarəng olsun.

Sözü duymaq, sözü anlamaq yəqin ki, ilk sırada sözü yaradanın özünün missiyasıdır. Bu mənada dövrümüzün yaddaş şairi kimi tanıdığımız İlham Qəhrəmanın sözünə nüfuz etmək, onu anlamaq, başa düşmək, həm də bir oxucu kimi hər birimizin boynunda olan həqiqət missiyasıdır,